*Səyavuş SƏRXANLI*

## ŞUŞADA POEZİYA BAYRAMI

Bir döyüş meydanı gördüm bu yeri,
Bir şair qardaşım şe'r deyirdi.
Yaxında qızların qara gözləri,
Uzaqda Murovdağ çiçəkləyirdi.

Göyə söykənmişdi şairin üzü,
Sazın simlərində yanırdı su da.
Baxtıma məəttəl qalmışdım, düzü,
Sehrə bələnmişdi söz də, arzu da.

Ay doğdu... Daşaltı suları yandı,
Kaş, qurban gedəydim min yol bu ana.
Gözlərimdə qoşa ney işıqlandı,
Məni səpələdi Azərbaycana.

Gördüm daş dünyamız şüşə bələnmiş,
Sındıran da yazıq, sınan da yazıq.
Gördüm ki, ürəklər nəğmələrinmiş,
Yandıran da yazıq, yanan da yazıq.

Gördüm çoxdan keçib, azın baxtına
Şair göz yaşını bələməkdədir.
Əlləri uzalı bu söz taxtına -
Gördüm çox şairlər mələməkdədir.

Bir ağır karvanı çəkirdi o tək...
Daşlar da tərpənib yerimişdilər.
Gölünə daş düşən qurbağalar tək
Qonşu şairləri kirimişdilər.

Ümidlə doluydu, odla doluydu,
Doğmadan, əzizdən danışırdı o.
Araz bir qoluydu, Kür bir qoluydu.
Dünyaya Təbrizdən danışırdı o.

Deyirdi vaxtın haqq məhkəməsində
Əsillik, nəsillik seçilməlidir.
Deyirdi son sözün piyaləsində
Arazın göz yaşı içilməlidir!

Şair mərmi canlı torpaqdı axı,
Qorxusuz bir şair sınmış qanaddır.
Qoruna bilməyən Vətən torpağı
Düşmənə doğmadı, doğmaya yaddı.

Üzü nurlanırdı bir loğman kimi,
Bu cavan müdrik bir qocaydı elə.
Çəkirdi yurdumun sərhədlərini
Dərbənddən, Göyçədən, Tiflisdən belə!

Qurbanı olanda doğulur Vətən!
Şair deyirdi ki, özün halısan:
Əlin gül üzdükcə gələcəyindən
Keçmişə baş əymək bacarmalısan.

Sevgidən dedikcə susurdu aləm,
Həsrət göyərirdi göy meşə kimi.
Qəddi əyilirdi şairin o dəm
Ayrılıq bükülən bənövşə kimi.

Çiçək ətri idi dil-ağızdakı,
Yerdən də, göydən də yağırdı düzü.
Məni götürmüşdü sıramızdakı
Böyük adamları öpmək arzusu!

Vaqif dirilmişdi bayaqdan bəri,
Bir şair qardaşım şe'r deyirdi.
Yaxında qızların qara gözləri,
Uzaqda ağ yollar çiçəkləyirdi...